# Rəhbərə tükənməz sevgi

## *Azərbaycanın qızıl hərflərlə yazılan yeni tarixi bu reallığı əks etdirir*

***Vətəni və milləti qarşısında misilsiz xidmətləri olan, müstəqilliyimizin müəllifi və müasir dövlətimizin memarı ulu öndər Heydər Əliyevin xalq qarşısındakı ən böyük xidmətlərindən biri də Azərbaycanın gələcək taleyində əvəzsiz rolu, milləti və dövləti qarşısında müstəsna xidmətləri olan cənab İlham Əliyev kimi bütün ali keyfiyyətlərə malik böyük şəxsiyyət və müdrik bir lider yetişdirməsi olmuşdur.***

2003-cü ildə xalqın dəstəyi ilə Prezident seçiləndə Konstitusiyamıza və "Qurani-Kərim"ə and içərək dövlət müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağına söz verən dövlət başçımız İlham Əliyev, Qarabağ fatehi bizlərə Zəfər sevinci yaşadaraq dünya azərbaycanlılarının və Türk dünyasının ürəyində özünə əbədi yer tutdu. 44 günlük müharibədən sonra Müzəffər Ordusu ilə keçirdiyi antiterror əməliyyatı zamanı xalqımızın fədakarlığına, gücünə inanmayan ermənilərə 23 saat 43 dəqiqəyə həyatı başa saldığı üçün tarix yaradan, tarix yazan lider oldu. Ulu öndər Heydər Əliyevin layiqli varisi cənab İlham Əliyev 30 il erməni işğalı altında saxlanılan torpaqlarımızı işğaldan azad etməklə Azərbaycanın Qələbə tarixini yazdı.

Cəmi 44 gün ərzində 27 sentyabr - 10 noyabr Azərbaycan tarixinin ən şanlı səhifəsidir. Xalq Prezidenti tarix yazan Sərkərdə adlandırdı. Ali Baş Komandanın qətiyyətli iradəsi, düşünülmüş əmrləri ilə uğurlu hərbi əməliyyatlar aparıldı,



onun rəhbərliyi ilə Xalq-Dövlət-Ordu birliyi tarixi qələbə qazandı. Bu qələbəni biz şəhidlərimizin, qazilərimizin qanı, canı bahasına qazandıq. Azərbaycanın qızıl hərflərlə yazılan yeni tarixinin memarı, sərkərdəsi cənab İlham Əliyev oldu.Vətən müharibəsində Azərbaycan həm döyüş meydanında, həm də xalqın Prezidentin ətrafında sıx birləşərək onun siyasətini dəstəkləməsi sayəsində möhtəşəm qələbə qazandı. Bu qələbənin həlledici amili Azərbaycanın yeni tarixinin müəllifi məhz cənab İlham Əliyev oldu. Azərbaycanın yeni tarixi eyni zamanda güclü Ordumuzun və əsgərlərimizin igidliyi ilə əldə edildi. Azərbaycan bu zəfəri xalqla dövlətin sarsılmaz birliyi, "Dəmir yumruq" tək birləşməsi sayəsində qazandı. Artıq 21 ildir xalqımız ulu öndər Heydər Əliyevin özü qədər inandığı İlham Əliyevin ətrafında sıx birləşmişdir. Bu gün Azərbaycana Heydər Əliyev yolunun layiqli davamçısı İlham Əliyev başçılıq edir. Heydər Əliyev siyasəti Azərbaycanda yaşayır və qalib gəlir.

Bu illər ərzində siyasi arenalarda qazanılan diplomatik uğurlar, ölkəmizin iqtisadi dayaqlarının möhkəmləndirilməsi istiqamətində görülən əsaslı işlər, ordu quruculuğu, təhsil, səhiyyə, mədəniyyət, idman və digər sahələrdə əldə olunan nailiyyətlər ölkəmizin davamlı və dayanıqlı tərəqqisini şərtləndirdi. İkitərəfli və çoxtərəfli formatlarda qurulan səmərəli əməkdaşlıq münasibətləri ölkəmizin iqtisadi, siyasi əlaqələrinin genişləndirilməsində müstəsna rol oynadı. Eyni zamanda beynəlxalq təşkilatlarda aparılan uğurlu fəaliyyət Azərbaycan həqiqətlərinin, ölkəmizin bir nömrəli problemi olan Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı ədalətli mövqeyimizin dünya ictimaiyyətinə çatdırılmasını təmin etdi.

Ulu öndərin "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" fikri bu gün də həyata keçirilən dövlət siyasətimizin əsas istiqamətlərindən birini təşkil edir. Ölkəmizin sürətli və davamlı iqtisadi inkişafı naminə aparılan mütərəqqi islahatlar, icra olunan Dövlət proqramları, həyata keçirilən layihələr güclü və rəqabətədavamlı iqtisadi tərəqqinin təmin olunmasında müstəsna rol oynayır. Beynəlxalq tərəfdaşlarla birgə icra edilən mühüm layihələr, ulu öndərin təşəbbüsü və iştirakı ilə otuz il öncə "Əsrin müqaviləsi"nin imzalanması ilə əsası qoyulan enerji strategiyasının dövlətimizin başçısı tərəfindən müasir çağırışlar əsasında davam etdirilməsi ölkəmizin iqtisadi inkişafına, beynəlxalq mövqelərinin möhkəmləndirilməsinə önəmli töhfələr verir. Cənub Qaz Dəhlizi kimi nəhəng enerji layihəsinin tərəfdaşlarla birgə uğurla icrası və onun genişləndirilməsi istiqamətində atılan məqsədyönlü addımlar nəticəsində bu gün Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki rolu daha da artıb. Azərbaycan qazı artıq dünyanın 10 ölkəsinə satılır ki, onların da səkkizi məhz Avropa ölkəsidir. Eyni zamanda "Neft kapitalının insan kapitalına" çevrilməsi istiqamətində atılan addımlar, neft-qaz sənayesindən əldə olunan gəlirlərin iqtisadiyyatın müxtəlif sahələrinin inkişafına, əhalinin rifah səviyyəsinin daha da yüksəldilməsinə, ordumuzun maddi-texniki bazasının möhkəmləndirilməsinə yönləndirilməsi Azərbaycanın hərtərəfli inkişafında müstəsna rol oynayır.

Ötən dövrdə iqtisadi və hərbi gücünü daim artıran, qarşısına qoyduğu bütün strateji hədəflərə doğru inamla irəliləyən, bu yolda böyük nailiyyətlərə, qələbələrə imza atan Azərbaycan Cənubi Qafqaz regionunun ən sürətlə inkişaf edən, qüdrətli, lider dövlətinə çevrildi. Milli iqtisadiyyatın dünyada rekord səviyyədə - 3 dəfədən çox artımına, sahibkarlığın, regionların tərəqqisi şəraitində iqtisadi şaxələndirməyə və qeyri-neft sektorunun əhəmiyyətli dərəcədə genişlənməsinə, dünya iqtisadi sisteminə inteqrasiyanın gücləndirilməsinə, milli iqtisadiyyata investisiya axınının təmin edilməsinə və ölkəmizin beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi nüfuzunun xeyli güclənməsinə nail olundu. Uğurlu sosial-iqtisadi siyasət, icra olunan ardıcıl və məqsədyönlü Dövlət proqramları yoxsulluğun kəskin şəkildə azalmasını şərtləndirməklə, Azərbaycan bu sahədə müsbət təcrübəsinə görə BMT-nin Davamlı İnkişaf Məqsədlərinə dair milli məsləhətləşmələrin aparılması üçün seçilmiş ölkələr sırasına daxil edildi.

"Azərbaycan sosial dövlətdir. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun qayğıları, onun problemləri, onun təhlükəsizliyi, onun xoşbəxtliyi dayanır" - deyən Prezident cənab İlham Əliyevin sosial sahəyə xüsusi qayğısı ölkəmizdə davamlı sosial inkişafa, sosial müdafiə və aktiv məşğulluq proqramlarının uğurla davam etdirilərək ildən-ilə əhəmiyyətli dərəcədə genişlənməsinə, sosial təminat sisteminin dəfələrlə güclənməsinə imkan yaradıb. 2003-cü ildən ötən dövrdə əməkhaqları, pensiya və digər sosial ödənişlərin mütəmadi olaraq artırılması, regionların və özəl sektorun inkişafı şəraitində yeni iş yerlərinin açılması, məşğulluq imkanlarının artmasının daimi xarakter alması, əhalinin gəlirlərində ilbəil artım, sosial müdafiə və reabilitasiya əhəmiyyətli yeni müəssisələr şəbəkəsinin qurulması, sosial təminat sisteminin əhəmiyyətli dərəcədə genişləndirilməsi təmin edilib. Dövlət başçısının qeyd etdiyi kimi, "Azərbaycan sosial dövlətdir və biz bunu sözlə yox, əməlimizlə təsdiqləyirik".

İqtisadi inkişaf tempi və modelinə görə dünyanın diqqət mərkəzində olan Azərbaycan həm də sosial dövlət kimi xarakterizə olunur. Ölkəmizdə reallaşan sosial siyasətin üstün cəhətlərindən biri də onun çoxşaxəliliyi, icra olunan sosial proqramlarla müəyyənləşməsidir. Burada əhalinin həssas kateqoriyalı təbəqələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, onların reabilitasiyası, cəmiyyətə inteqrasiyası prioritet məsələlərdəndir. Dövlət başçısının xüsusi qayğısı nəticəsində ölkəmizdə ardıcıl sosialyönümlü islahatlar aparılıb, sosial müdafiə və aktiv məşğulluq proqramları xeyli gücləndirilib, müasir və etibarlı, dayanıqlı sosial təminat sistemi qurulub. Hər il dövlət büdcəsi tərtib edilərkən onun sosialyönümlü olmasına xüsusi diqqət yetirilmişdir. Bunun nəticəsidir ki, 2003-2023-cü illərdə sosial təyinatlı büdcə xərcləri 20 dəfədən çox artmışdır. Cənab Prezidentin rəhbərliyi ilə keçən dövrdə orta aylıq nominal əməkhaqqı 12 dəfə, minimum əməkhaqqı isə 38 dəfədən çox artmışdır. Orta aylıq pensiya 18 dəfəyə yaxın, minimum pensiya məbləği isə 14 dəfə yüksəlmişdir. Əgər 21 il əvvəl yoxsulluq şəraitində yaşayan insanların sayı 45 faizə yaxın idisə, aparılan işlər nəticəsində hazırda onlar 5 faiz təşkil edir. Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar yaralanmış və əlil olmuş şəxslərin müalicəsi, şəhid ailələrinin və müharibə iştirakçılarının sosial-məişət şəraitinin yaxşılaşdırılması daim dövlət başçısının və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət mərkəzindədir. Şəhid ailələri və müharibə əlilləri üçün mənzil təminatı proqramı da 5 dəfə genişlənib. Prezident İlham Əliyevin yürütdüyü siyasətin əsas başlıca hədəfi insanların sosial rifahının yaxşılaşdırılmasıdır. Belə ki, minimum əməkhaqqının 300 manatdan 345 manata qaldırılması, minimum pensiya məbləğinin 280 manata çatdırılması, müavinət və təqaüdlərin artırılması bir daha təsdiqləyir ki, Azərbaycanın sosial dövlət modeli nümunəvi və uğurludur.

Prezident İlham Əliyev həssas əhali təbəqəsinə, şəhid ailələrinə davamlı qayğını bütün cəmiyyətin işinə çevirib, şəhid ailələrinə mənzillərin, maşınların açarlarını şəxsən özü təqdim edir, bu qayğını özünə təkcə vəzifə borcu yox, həm də şərəf sayır. Bu ünsiyyət insanları sevindirir, ürəkləndirir, sabaha inamını artırır və həm də düşündürür. Çünki bu münasibət son dərəcə səmimidir və ürəkdən gəlir. Məsələn, dövlət başçısı öz ad günlərində hər zaman xalqın arasında olur. Ölkəsinin və xalqının taleyini öz taleyinə çevirən Prezident çətin gündə də, xoş gündə də xalqın yanındadır. Ona insanların sonsuz sevgisini qazandıran da elə bu sadəlik, bu təvazökarlıqdır. "Ölkənin ən dəyərli sərvəti onun vətəndaşlarıdır" - deyən Prezident hakimiyyətdə olduğu dövrdə hamının doğmasına çevrilib. Lider xalqını, xalq da onu qorudu, ona inandı, bu sevgisi ilə təkcə kiçik ölkəsini böyütmədi, bu kiçik ölkənin vətəndaşlarını da ucaltdı. Azərbaycanın qazandığı misilsiz uğurların təməlində də məhz xalq-iqtidar birliyi dayandı. Prezidentin bölgələrə səfərləri zamanı insanlarla görüşləri, onlarla səmimi ünsiyyəti, hər birini təmkinlə dinləməsi, problemlərini məhz onların özlərindən öyrənməsi, yerindəcə tapşırıqlar verməsi, ilk növbədə xalqa olan məhəbbətin sübutudur. Bu etimadın təməlində həm də qarşılıqlı hörmət qərarlaşıb. Prezident İlham Əliyevin "Biz birlikdə güclüyük" şüarı bu gün xalqın qalib ruhunun güzgüsüdür. Xalqın orduya inamı və dəstəyi, həmçinin ölkədə yaşanan milli və siyasi həmrəylik yaşadığımız qələbənin ideoloji əsasıdır. Birliyə dəvət edən Prezident xalqın dəmir yumruq kimi birləşməsinin əsas səbəbidir. İşğal dövründə düşmənin darmadağın etdiyi bu ərazilərdə su-elektrik stansiyaları, hava limanları, dəmir yolu xətləri, avtomobil yolları, körpülər, tunellər, magistral su xətləri, müasir yaşayış kompleksləri tikilir, sosial-iqtisadi infrastrukturlar, sənaye parkları və aqroparklar yaradılır. Prezident İlham Əliyevin böyük uzaqgörənliklə qurduğu strategiya Azərbaycan dövlətini daha qüdrətli, Azərbaycan xalqını daha güclü, Azərbaycan bayrağını daha uca etməyə hədəflənib və biz bu hədəflərə çatacağımızdan əminik. Azərbaycan Prezidenti İlham Əliyevin işğaldan azad olunan ərazilərə etdiyi səfərlər zamanı açılışı olan obyektlər, yaradılan infrastruktur layihələri deməyə əsas verir ki, böyük quruculuq işləri nəticəsində bu ərazilərdə tezliklə yeni həyat başlanacaq.

Ölkənin inkişaf istiqamətlərini və tutduğu yolu, dövlətin yeritdiyi siyasəti müəyyənləşdirən Azərbaycan Prezidenti İlham Əliyev deyir: "Bizim siyasətimiz uzunmüddətli siyasətdir. Biz ölkəmizin gələcəyi, uzunmüddətli, dayanıqlı inkişaf haqqında düşünürük... Bu gün biz özümüzü dünya miqyasında müstəqil ölkə kimi təqdim edə bilmişik, müstəqil siyasət aparan ölkə kimi tanınırıq. Əlbəttə ki, bunun təməlində güclü siyasi iradə, xalq-iqtidar birliyi, bir çox başqa amillər dayanır. Onların arasında iqtisadi müstəqillik xüsusi yer tutur".

Qətiyyətli lider kimi Azərbaycan xalqını uğurlara aparan cənab İlham Əliyev ölkənin siyasi, iqtisadi nüfuzunu möhkəmləndirməklə, ən qlobal enerji, nəqliyyat layihələri ilə bağlı təşəbbüslərini reallaşdırmaqla ölkəmizi dünya siyasətində sözünü cəsarətlə deyə biləcək səviyyəyə yüksəltdi. Hazırda elə bir beynəlxalq təşkilat yoxdur ki, orada Azərbaycan Cənubi Qafqazın lider ölkəsi adlandırılmasın. Beynəlxalq maliyyə təşkilatlarının, reytinq agentliklərinin hesabatlarında ölkəmizin adı ön sıralarda, ilk onluqda çəkilməsin. Təbii ki, bu zirvəyə yüksəlmək üçün dövlət başçısından siyasi iradə, hadisələri düzgün təhlil etmək qabiliyyəti, zamanın çağırışlarını düzgün qiymətləndirmək bacarığı tələb olunur.

Azərbaycan xalqı kimi, dünya siyasətçiləri, dövlət başçıları da yenilikçi, təşəbbüskar, cəsarətli, açıqsözlü lider adlandırır, ən mötəbər tədbirlərdə onunla birlikdə olmalarından məmnunluqlarını etiraf edirlər. Elə buna görədir ki, beynəlxalq aləmdə böyük nüfuz qazanan, hadisələrə təsir imkanları artan, dünya iqtisadiyyatına önəmli təşəbbüsləri ilə inteqrasiya edən, sivilizasiyalararası məkan kimi tanınan ölkəmizlə hesablaşır, cənab İlham Əliyevin məntiqə, arqumentlərə əsaslanan bütün çıxışları diqqətlə dinlənilir, inkişafın Azərbaycan modeli öyrənilir, uğurla tətbiq olunur. "Heç bir kənar qüvvə, heç vaxt Azərbaycanın müstəqilliyinin qarantı kimi çıxış etməmişdir, etmir və edə bilməz" söyləyən cənab İlham Əliyev ədalətə qeyri-bərabərlik prinsipinin, düzgünlük əvəzinə riyakarlığın, yalanın dəstəkləndiyi, beynəlxalq hüququn işləmədiyi dünyamızda haqq sözünü, Azərbaycan xalqının, dövlətinin mənafeyini müdafiə etmək gücündə olduğunu göstərməklə yeri gəldikdə dost, qardaş ölkələrin də maraqları baxımından çıxış edir.

Cənab İlham Əliyevin "Bu onu göstərir ki, güclü olmaq lazımdır. Biz də bunu çoxdan başlamışıq: güclü ordu, güclü iqtisadiyyat, vətəndaş həmrəyliyi və düşünülmüş siyasət və sosial ədalət" sözləri sübut edir ki, Azərbaycan liderlik missiyasını davam etdirir. Görülən işlər isə bütün ölkələrlə bərabərhüquqlu, qonşularla mehriban münasibətlərin tərəfdarı olan Azərbaycanın geosiyasi əhəmiyyətini artırır, bölgənin aparıcı ölkələrindən biri kimi tanıdır. Prezident İlham Əliyev cəsarətlə bildirir ki, Azərbaycan xalqının maraqları hər şeydən üstündür: "Bu maraqları təmin etmək üçün biz mübarizəmizi aparırıq və aparacağıq. Nəticələr və yaxın tarix göstərir ki, biz hətta təkbaşına mübarizədə də qalib gələ bilirik. Azərbaycan daha da güclü olacaq və bizim haqqımızda, ölkə haqqında yazan, o böhtanlı məqalələrin müəlliflərinə də ən gözəl cavab bizim reallıqlarımızdır, bizim işimizdir, uğurumuzdur".

Prezident İlham Əliyevin yürütdüyü siyasət müasir Azərbaycanın güclənməsinə, milli-mənəvi dəyərlərimizin ən yüksək səviyyədə qorunmasına xidmət edir. Dünyada tolerant ölkə kimi tanınan Azərbaycan Prezident İlham Əliyevin xidmətləri sayəsində mədəniyyətlərarası və sivilizasiyalararası dialoq məkanına çevrilib. Azərbaycan möhtərəm Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ən uca zirvələri fəth edir. Azərbaycan xalqının öz Liderinə olan sevgisi və inamı bizi yeni qələbələrə, yeni zirvələrə aparır.

**Mustafa KAMAL,**
**"Respublika".**